# Azərbaycan regionun nəqliyyat qovşaqları mərkəzinə çevriləcək

***Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda keçirdiyi müzakirələrdə Zəngəzur dəhlizinin açılmasının bütün region ölkələri üçün yeni imkanlar yaradacağını bildirib. Dövlətimizin başçısı, bu dəhlizin açılmasını türk dünyasının birləşdirilməsi və regionda əməkdaşlıq üçün yeni imkanlar yaratması baxımından da yüksək dəyərləndirib və bölgədə davamlı sülhün qorunub saxlanmasında önəmli rol oynayacağını diqqətə çatdırıb.***



Regionun kifayət qədər iqtisadi potensialı var və bu, regional dəhlizlərin əhəmiyyətini daha da artırır.

Azərbaycanın yerləşdiyi coğrafi ərazidə regional dəhlizlərin əhəmiyyətini artıran başqa bir məqam da bölgə ölkələrindən Türkiyə və Rusiyanın "Böyük iyirmiliy"in üzv olmaları ilə bağlıdır. Şübhəsiz ki, İran da regionun aparıcı ölkələrindən hesab olunur. Cənubi Qafqazın isə dayanıqlı sülh kontekstində inkişaf perspektivləri yüksək qiymətləndirilir. Burada söhbət 3 trilyon dollarlıq ümumi daxili məhsulu olan region ölkələrinin Zəngəzur dəhlizindən istifadəsindən gedir. Belə ki, Rusiya 1,7 trilyon, Türkiyə 761,4 milyard, İran 454 milyard, Azərbaycan 48,05 milyard, Gürcüstan 17,48 milyard, Ermənistan 13,67 milyard dollarlıq ÜDM-ə malikdir.

Digər tərəfdən, Zəngəzur dəhlizinin istifadəyə verilməsi, eyni zamanda, Azərbaycanın regionun nəqliyyat qovşaqlarının habına çevrilməsini şərtləndirir. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin birbaşa inkişafına təkan verir, eyni zamanda, maliyyə dəstəyi göstərir.

Zəngəzur dəhlizinin istifadəyə verilməsi Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsi ilə digər nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini baxımından əhəmiyyətli olacaq.

Beləliklə, Zəngəzur dəhlizinin yaradılması ilə Avrasiyanın nəqliyyat şəbəkəsinin yeni bir "damarı" açılacaq və bu, nəticədə bölgə ölkələri arasında xüsusilə iqtisadi-ticari əlaqələrə müsbət təsir göstərəcək. Türkiyə bu dəhlizdən istifadə edərək əsas iqtisadi tərəfdaşlarından biri olan Azərbaycana birbaşa quru yolu reallaşdıracaq. Şübhəsiz ki, bu da, öz növbəsində, ikitərəfli iqtisadi və turizm əlaqələrinin daha sürətli inkişafına şərait yaradacaq. Digər tərəfdən, Zəngəzur dəhlizi həm də Türkiyə üçün Orta Asiyaya bir ticarət qapısı rolunu oynayacaq və bu ölkənin türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək.

Ermənistan isə Zəngəzur dəhlizinin qeyd edilən üstünlüklərindən yararlanarsa, başqa sözlə, regional əməkdaşlığa önəm verərsə, sosial-iqtisadi sahələrdə müsbət göstəricilərlə qarşılaşa bilər. İlk növbədə, iqtisadi blokadadan çıxmaq və iqtisadi inkişafını gerçəkləşdirmək imkanları əldə edər.

Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri" adlı videoformatda keçirdiyi müzakirələrdə bu barədə deyib: "Biz nəqliyyat məsələlərində, xüsusilə Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin açılması məsələləri ilə bağlı əməkdaşlıq təklif etmişik. Eyni zamanda, Ermənistanın iki yaxın dostu ilə - Rusiya və İranla dəmir yolu əlaqəsi olacaq. Bu dəmir yolu əlaqəsi mövcud deyil. Beləliklə, biz bunu təklif etdik və sizə deyə bilərəm ki, proses gedir. Proses başlayıb, bu, asan deyil, lakin başlayıb".

Amma düşmən ölkə təcavüzkar siyasətindən əl çəkməsə, Zəngəzur dəhlizinin açılması yönündə fəaliyyət göstərməsə, bu ölkədə işsizlik səviyyəsi daha da artacaq, mühacirət və yoxsulluqla müşayiət olunan oxşar iqtisadi vəziyyət getdikcə ağırlaşacaq, düşmən respublikada xaos və özbaşınalıq daha da dərinləşəcək.

Ümumiyyətlə, Zəngəzur dəhlizi regionda kommunikasiyaların bərpasında həlledici layihələrdən hesab olunur. Bölgədə dayanıqlı inkişaf və sülh üçün isə kommunikasiyaların bərpası qaçılmazdır.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti 2021.- 25 may.- S.3.